YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
8 may
2025-ci il,
cümə axşamı
№ 078 (6905)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

# Əziz Şuşa, sən azadsan!

## Artıq Şuşanın işğalı ildönümünü qeyd etmirik...




Bax səh. 5



# Azərbaycan-Vyetnam əlaqələri daha yüksək pillədə...

## Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat imzalandı

Bax səh. 2

# "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru"

Bax səh. 3-4






## Bakı - Hanoy: Yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri

Daim müstəqillik, suverenlik prinsiplərindən çıxış edən Azərbaycan özünün multiregional xarici siyasət kursunda həm yaxın, həm də uzaq coğrafiyalarda yerləşən ölkələrlə münasibətlərini qarşılıqlı hörmət və maraqlar əsasında genişləndirməyə çalışır. Belə ölkələrdən biri də Vyetnamdır. Prezident İlham Əliyevin bu günlərdə Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency"...

Bax səh. 5

## Naxışlara düzülən mədəniyyət nümunələrimiz...

Ötən gün İçərişəhər, Qoşa Qala meydanında keçirilən Beynəlxalq Xalça Festivalı uğurla başa çatıb. Üç gün davam edən festivalın əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini beynəlxalq miqyasda tanıtmaq, bu qədim sənət növünün zəngin irsini və müasir inkişaf perspektivlərini nümayiş etdirmək, eləcə də müxtəlif ölkələrin xalçaçılıq ənənələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparmaq olub.

Forumda Özbəkistan, Türkmənistan, Albaniya, Almaniya, İngiltərə, Latviya, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Rusiya, Yaponiya, İspaniya və digər ölkələrin nümayəndələri iştirak edib. 200-dən çox iştirakçının - sənətşünaslar, xalçaçı ustalar, tələbələr və incəsənət xadimlərinin iştirak etdiyi...

Bax səh. 6



## Hindistanın qəfil hücumuna ağır cavab...

Bax səh. 7



## 51-ci ştat qurmaq arzusu ilə...

Bax səh. 7

# Azərbaycan-Vyetnam əlaqələri daha yüksək pillədə...

## Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat imzalandı

Azərbaycana dövlət səfərinə gələn Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamı və xanımı No Fon Lini qarşılayıblar.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 7-də Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə məhdud tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycanla Vyetnam arasında diplomatik münasibətlərin 30 il ərzində mövcud olmasına baxmayaraq, ölkələrimizin dostluq təmaslarının hələ keçən əsrin 50-ci illərinin sonlarına təsadüf etdiyi vurğulanıb, həmin dövrdən etibarən Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Azərbaycana, Ulu Öndər Heydər Əliyevin isə SSRİ rəhbərliyində olduğu zaman Vyetnama səfərləri məmnunluqla xatırlanıb.

Dövlətimizin başçısı özünün Vyetnama səfərinə toxunub, Baş katib To Lamın ölkəmizə səfəri zamanı strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasını əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına xidmət etdiyini vurğulayıb.

Söhbət zamanı Hökumətlərarası Komissiyanın iclasının tezliklə keçirilməsinin və qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində əməli fəaliyyətin vacibliyi vurğulanıb.

Enerji və birgə investisiya layihələri müzakirə olunub, mədəni, humanitar sahələrdə əməkdaşlığın böyük perspektivinin olduğu qeyd edilib. Həmçinin müxtəlif sahələrdə təhlükəsizlik, müdafiə və kibercinayətkarlığa qarşı mübarizə sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, bütün sahələrdə təmasların artırılmasının vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin BMT, AQEM, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qeyd edilib.

Vyetnam tərəfinin öz ixrac marşrutlarının şaxələndirilməsində maraqlı olduğu vurğulanıb və bu baxımdan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri yaxşı imkanlar yaratdığı qeyd edilib.

Görüşdə Vyetnamın öz tarixində işğaldan əziyyət çəkdiyi, azadlıq müharibəsi nəticəsində ərazi bütövlüyünün və suverenliyinin təmin olunduğu xatırlanıb. Eyni zamanda, Azərbaycanın da 30 ilə yaxın dövr ərzində Ermənistanın işğalından əziyyət çəkdiyi, Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünü və suverenliyini təmin etdiyi vurğulanıb.

Baş katib To Lam Vyetnamın azadlığı uğrunda mübarizəsində və bu ölkənin birləşməsi prosesindən sonra quruculuq və bərpa işlərində Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib.

Söhbət zamanı vyetnamlı tələbələrin Azərbaycanda təhsil aldığı xatırlanıb, bu gün də həmin şəxslərin Vyetnamın inkişafında mühüm rol oynadıqları bildirilib, Vyetnamda Azərbaycanda təhsil almış tələbələrin Assosiasiyasının fəaliyyət göstərdiyi vurğulanıb.



Görüşdə Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Baş katib To Lam Prezident İlham Əliyevi Vyetnama səfərə dəvət edib. Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul edib.

## İmzalanmış sənədlər mübadilə edilib

Mayın 7-də Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Birgə Bəyanat"ı qəbul ediblər.

Sonra "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Milli Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2027-ci illər üçün Əməkdaşlıq Proqramı", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Sənaye - Enerji Qrupu ("PetroVietnam") arasında Anlaşma Memorandumu", "SOCAR Trading Singapore PTE LTD" ilə "Binh Son Refining and Petrochemical JSC" arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Mədəniyyət, İdman və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" mübadilə edilib.



Səfər çərçivəsində, həmçinin "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Vyetnam Dövlət Qeydiyyatı və Arxiv İdarəsi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə Vyetnam İnformasiya Agentliyi arasında əməkdaşlıq Sazişi" və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VİNEN) arasında Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanıb.

## "Bütün mübahisəli məsələlər danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır"

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə bəyanatla çıxış edən dövlətimizin başçısı qonaqları salamlayaraq bu səfərin Vyetnam-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm əhəmiyyət daşıdığını söyləyib. Prezident İlham Əliyev səfərin nəticələrinin uğurlu olacağına və əldə edilmiş razılaşmaların konkret layihələrə çevriləcəyinə əminliyini ifadə edib: "Bu gün imzalanmış sənədlər arasında Azərbaycan ilə Vyetnam arasında qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatı xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir. Bu, əslində, Vyetnam-Azərbaycan əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Əminəm ki, artıq bu yüksəksəviyyəli münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün də ən vacib rol oynayacaqdır. Gördüyünüz kimi, bu gün imzalanmış sənədlər arasında bir çox istiqamətlər üzrə sənədlər var". Dövlətimizin başçısı Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana dövlət səfəri çərçivəsində bu sənədlərin imzalanmasının onların əhəmiyyətini daha da artırdığını bildirib: "Bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Bu gün bu və digər istiqamətlər üzrə məsələlər geniş müzakirə edildi. Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Bu gün bu əməkdaşlıq var və daha çox ticarət əməkdaşlığı formasında aparılır. Ancaq qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri müzakirə olundu və göstəriş verildi ki, aidiyyəti qurumlar bu məsələlərlə bağlı konkret addımlar atsınlar".

İqtisadi-ticari istiqamət üzrə ticarət dövriyyəsinin dinamikasının Azərbaycanın Vyetnama neft satışından asılı olduğuna təəssüfləndiyini deyən ölkəmizin rəhbəri qeyd edib ki, neft satışı yüksək səviyyədə olanda ticarət dövriyyəsi artır, azalanda azalır - biz ticarət dövriyyəmizi daha da balanslaşdırılmış formada görmək istərdik və bunun üçün, təbii ki, qarşılıqlı informasiya mübadiləsi lazımdır: "Hansı layihələr ölkələrimizdə həyata keçirilir, investisiya imkanları nədən ibarətdir, qaydalar, qanunvericilik bazası, vergi inzibatçılığı - bütün bu məsələlər biznes dairələri üçün gərək aydın olsun. Belə olan halda əminəm ki, ticarət dövriyyəsi təkcə neft amilindən asılı olmayacaq".

Görüşlər zamanı bərpaolunan enerji növlərinin istehsalı ilə bağlı fikir mübadiləsinin aparıldığını bəyan edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın bu sahədə çox böyük imkanları, potensialı var: "İmzalanmış kontraktlar 5 il bundan sonra bizə 6500 meqavat gücündə yeni enerji, təmiz enerji gücləri qazandıracaq və Vyetnam şirkətlərini investisiya qoymağa dəvət etdik. Eyni zamanda, Azərbaycan tərəfinin Vyetnamda bərpaolunan enerji növlərinə sərmayə qoymağa hazır olduğunu bildirdim".

Dövlətimizin başçısı müdafiə sənayesi sahəsində çox böyük perspektivlər olduğuna diqqəti çatdırıb və söyləyib ki, hər iki ölkədə sənayenin bu istiqaməti kifayət qədər inkişaf edib - burada da səylərin birləşdirilməsi, birgə müəssisələrin yaradılması və qarşılıqlı əməkdaşlıq fayda gətirə bilər.

Beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimizin ürəkaçan olduğunu söyləyən Prezident İlham Əliyev Vyetnamın bir neçə il bundan əvvəl Azərbaycanı BMT Təhlükəsizlik Şurasında çox ciddi dəstəklədiyini xatırladıb və buna görə təşəkkürünü bildirib: "Biz Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət göstəririk. Azərbaycan bu təsisata 4 il sədrlik etmişdir və çox gözəl bir iz buraxmışdır. Bu gün Qoşulmama Hərəkatının daha da sanballı təsisat kimi fəaliyyəti hər iki ölkənin marağındadır".

Beynəlxalq hüququn aliliyi haqqında fikir mübadiləsi apardıqlarını və bu sahədə fikir ayrılığının olmadığını önə çəkən dövlətimizin başçısı qeyd edib: "Bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında - beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır. Bütün mübahisəli məsələlər danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır".

Yəni bu gün bir çox istiqamətlər üzrə apardığımız müzakirələr əsnasında görürük ki, fikir ayrılığı yoxdur. Əksinə, biz demək olar ki, vahid mövqedən çıxış edirik. Baxışlarımızda da bir çox oxşarlıq var. Baxmayaraq ki, aramızdakı məsafə kifayət qədər uzundur, bizi birləşdirən nəqliyyat infrastruktur layihələri haqqında da bu gün danışdıq. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilərik. Bir sözlə, əminəm ki, səfərin çox gözəl nəticələri olacaq. Bizim hörmətli qonağımız ilk dəfədir ki, Azərbaycana səfərdədir. Səfər vaxt baxımından qısa olsa da, məzmun nöqteyi-nəzərindən kifayət qədər zəngindir".



## Baş katib 5 məsələni təklif edib

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam bəyanatla çıxış edərək azərbaycanlı dostların səmimi qəbuluna görə cənab Prezidentə dərin təşəkkürünü bildirib: "Hazırkı səfərim diplomatik münasibətlər qurulduqdan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Bu, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir". Ölkələrimiz arasında əlaqələrin dövlət rəhbərləri və xalqlarımız tərəfindən daim gücləndirildiyini deyən Baş katib qeyd edib ki, siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə etmişik: "Bu əsasla biz strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı artıq qəbul etdik. Bu isə ölkələrimizin münasibətlərinin tarixində yeni dövr, yeni səhifə açır. Əminəm ki, biz yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq".

Baş katib To Lam Birgə Bəyanatda əks olunan müddəaları icra etmək üçün beş məsələni təklif edib. Birinci məsələ partiya, dövlət, parlament və rayonlar kimi bütün səviyyələrdə əlaqələri və təmasları fəallaşdırmaqdır: "İstərdim ki, Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr fəal olsun, imzalanmış razılaşmalar icra edilsin, mövcud əməkdaşlıq mexanizmlərinin səmərəliliyi artırılsın və yeni mexanizmlərin yaradılması imkanları araşdırılsın. Mən Prezident Əliyevi yaxın zamanlarda Vyetnama səfərə dəvət edirəm. O, artıq dəvətimi qəbul edib.

İkincisi, hökumətlərarası komissiya vasitəsilə ticari-iqtisadi əməkdaşlığı fəallaşdırmaq. Əmtəə dövriyyəsi və sərmayələri artırmaq, iki ölkənin işgüzar dairələrini bir araya gətirmək, energetika, neft və qazla yanaşı, bütün sahələrdə əməkdaşlıq etmək, dəmir yolları, dəniz yolları, kənd təsərrüfatı sahələrində digər əməkdaşlıq imkanlarını araşdırmaq vacibdir.

Biz hökumətlərarası komissiyanın növbəti iclasının tezliklə baş tutması məsələsini nəzərdən keçirəcəyik. Həmin komissiyanın gələcək iclasının nəticələrini səbirsizliklə gözləyirik, çünki o, artıq strateji tərəfdaşlıq əsasında həyata keçiriləcək.

Üçüncüsü, biz müdafiə və təhlükəsizlik sahələrində əlaqələri fəallaşdırmalıyıq, informasiya təhlükəsizliyi, transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində münasibətlərimizi inkişaf etdirməliyik.

Dördüncüsü, mədəniyyət, idman və turizm, təhsil, xalqlararası təmaslar və regionlar sahələrdə əməkdaşlığı genişləndirməliyik. Biz məşqlər, idman yarışlarının təşkili sahəsində təcrübə mübadiləsi barədə razılığa gəldik, elecə də turizmi təşviq edəcəyik, tələbələri sizin güclü olduğunuz ixtisaslara yiyələnmək üçün göndərəcəyik. Xalqlararası təmaslara gəldikdə, istərdim ki, Dostluq Cəmiyyəti yaradılsın.

Beşincisi, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparmalıyıq və BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Toplantısı kimi təşkilatlarda bir-birimizi dəstəkləməliyik".



Mayın 7-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşü olub.



"Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam və xanımı No Fon Li Vyetnam rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

***

Mayın 7-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın və xanımı No Fon Linin şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycan və Vyetnam musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

# “Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru”














Mayın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov “Konstitusiya və Suverenlik İli” çərçivəsində xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə keçirilən tədbirin iştirakçılarını salamlayıb. Tahir Budaqov qeyd edib ki, Azərbaycan xalqı üçün bütün taleyüklü məsələlərin həlli məhz güclü lider amili, onun milli-mənəvi dəyərlərə və zamanın tələblərinə əsaslanan titanik fəaliyyəti, qətiyyətli və uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur: “Bu gün qürurla ifadə edirik ki, qüdrətli və qalib Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları və tükənməz dövlətçilik irsi ilə bağlıdır. Fəaliyyətinin bütün dövrlərində Azərbaycan naminə böyük fədakarlıq göstərərək misilsiz xidmətlərə imza atmış Heydər Əliyev əbədiyaşarlıq zirvəsinə ucalmış, onun adı xalqımızın xilaskarı, müasir müstəqil dövlətimizin qurucusu kimi tariximizə həkk olunmuş, siyasi irsi milli-mənəvi sərvətimiz kimi bu gün də Azərbaycanın tərəqqisinə xidmət edir və hələ uzun illər bundan sonra da onun ideyaları milli təkamül yolumuzun əsasını təşkil edəcəkdir”.

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndər Heydər Əliyev bir-birindən siyasi-ideoloji və sosial-iqtisadi cəhətdən tamamilə fərqli olan iki tarixi mərhələdə - istər SSRİ dönəmi, istərsə də müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı milli inkişafa xidmət edən ardıcıl və məqsədyönlü siyasət həyata keçirməklə xalqımız üçün taleyüklü uğurlara imza atmışdır. Onun sözlərinə görə, 1969-cu il 14 iyul tarixində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər respublikamızın sosial-iqtisadi yüksəlişini təmin etmiş, gələcək müstəqilliyinin əsaslarını formalaşdırmışdır: “O dönəmdə Azərbaycan dilinin respublika konstitusiyasında dövlət dili kimi təsbit edilməsi isə mürəkkəb tarixi mərhələdə milli şüurun güclənməsi, xalqın öz mənəvi sərvətlərini, tarixi dəyərlərini qoruyaraq yaşatması baxımından böyük əhəmiyyətə malik olmuşdur. Müdrik dövlət xadimi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi mərhələdə də ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqın rifahı və firavanlığı naminə məqsədyönlü işlər görmüş, dünya siyasətinə bir azərbaycanlı kimi öz bənzərsiz imzasını atmışdır. Ulu Öndər Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi də öz tarixi missiyasını davam etdirmiş, blokada vəziyyətindəki muxtar respublikanı ağır sosial-iqtisadi şəraitdən və tənəzzüldən qurtararaq onun dirçəlişinə nail olmuş, SSRİ-nin saxlanılması haqqında referendumda iştirakdan imtina etməklə faktiki olaraq müstəqilliyin təməllərini yaratmış, bu gün bütün ölkə ərazisində əzəmətlə dalğalanan üçrəngli dövlət bayrağını ilk dəfə ucaltmışdır”.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Heydər Əliyev müstəqillik dövründə xilaskarlıq və quruculuq missiyasını həyata keçirməklə ölkəmizi nəinki tənəzzüldən, hətta dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtararaq inkişaf yoluna çıxarmış, Ümummilli Lider zirvəsinə yüksəlmişdir: “1992-ci il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması, xalqın öz Liderinin arxasınca gedərək vahid amal uğrunda - milli məqsədlər naminə səfərbər olması həlledici siyasi-ideoloji faktor kimi ölkəmizin gələcəyini müəyyən etmişdir. Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olarkən - 1993-cü ilin iyun hadisələri zamanı xalqımız Ulu Öndərə ölkəmizin qurtuluşu üçün respublikaya rəhbərlik etməsi barədə çağırış etmiş, Ümummilli Lider isə həyatını belə riskə ataraq növbəti dəfə tarixi-siyasi məsuliyyəti üzərinə götürmüş və Bakıya qayıdaraq iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmişdi. Həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Bu, Heydər Əliyevin böyük siyasətə Qayıdışı və Zəfər yolunun başlanğıcı idi”.

Tahir Budaqov vurğulayıb ki, 1993-cü il oktyabrın 3-də xalqın mütləq dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn vəzifələri ardıcıl həyata keçirməklə Azərbaycanın real müstəqilliyinə nail oldu: “Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etdi. Məqsədyönlü siyasət nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm addımlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etdi. Bir sözlə, Heydər Əliyevin respublikamıza ikinci rəhbərlik dönəmi - 1993-2003-cü illər Azərbaycanın sabitlik və tərəqqi yoluna qədəm qoymasını, böyük Zəfərin əldə edilməsi üçün möhkəm təməllərin yaradılmasını şərtləndirmişdir”.

YAP Sədrinin müavini bildirib ki, Ümummilli Liderimiz 2003-cü ildə xalqa müraciət edərək dövlətçiliyimizin qorunub inkişaf etdirilməsi naminə Azərbaycanın gələcəyinə dair aydın baxışını ortaya qoymuşdu: “Xalqımız Heydər Əliyevin müdriklik və uzaqgörənliyinə sonsuz inamı bir daha nümayiş etdirərək cənab İlham Əliyevə qətiyyətli dəstək və yüksək etimad göstərməklə siyasi varisliyi təmin etdi və bununla da ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın əzmkar mövqeyi sayəsində möhtəşəm uğurlar qazandı. Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası isə Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, diplomatik məharətinin real nəticəsidir. Dövlət başçısının Sərəncamı ilə elan olunan “Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilən tədbirlər Azərbaycanın bu möhtəşəm Zəfər yoluna - tam suverenlik zirvəsinə yüksəlməsinə hərtərəfli nəzər salınması baxımından böyük əhəmiyyət daşıyır”.

“Əminliklə söyləyə bilərik ki, qarşıdakı dönəm də Azərbaycanın davamlı uğurları və milli gücünün daha da artması ilə əlamətdar olacaqdır. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən, sözünün imzası qədər dəyərli olduğunu hər zaman təsdiq edən qətiyyətli Lider - Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni zəfərlər bəxş edəcəkdir. Müasir müstəqil Azərbaycan bu gün anadan olmasının 102-ci ildönümü ərəfəsində əziz xatirəsini dərin hörmətlə yad etdiyimiz Ulu Öndərimizin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük mirasıdır. Heydər Əliyev irsinə sonsuz ehtiram və sədaqət nümayiş etdirməklə möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan naminə çalışmaq hər birimizin ümdə vəzifəsi - həm mənəvi, həm də siyasi borcudur. Bu şərəfli yolda hamınıza inam və əzmlə addımlamağı arzulayıram. Yaşasın Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanəti olan müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevə!”, - deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov Ulu Öndər Heydər Əliyevin bütün həyatını Azərbaycan xalqına və dövlətinə həsr etdiyini bildirib. Onun sözlərinə görə, 1969-cu ildə Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlməsi respublikamızın tarixində dönüş nöqtəsi oldu: “Azərbaycanda Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılıb, mühüm iqtisadi potensial, maddi-texniki baza yaradılıb, əhalinin rifahı xeyli yüksəlib, elm, təhsil, mədəniyyət inkişaf prosesi keçib, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox əhəmiyyətli işlər görülüb. Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin siyasi iradəsi hesabına gerçəkləşib. 1969-1982-ci illərdə Azərbaycanda sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti sahəsində fundamental irəliləyiş baş verdi, Azərbaycan SSRİ-nin inkişaf etmiş respublikalarından birinə çevrildi”.

davamı 4-cü səhifədə

# “Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru”










əvvəli 3-cü səhifədə

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Ulu Öndər Heydər Əliyev sovetlər birliyi dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə də müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. Onun sözlərinə görə, Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə sabitliyin təmin olunması, təbii sərvətlərimizdən səmərəli istifadə məqsədilə “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanı qısa müddətdə böyük investisiyalar məkanına çevirdi: “Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi nüfuz qazandı. İqtisadi tərəqqi bütün sahələrdə uğurlu addımlara yol açdı. Ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Bir sözlə, 1993-2003-cü illərdə Azərbaycanın bu günü üçün möhkəm təməl yarandı”.

“Ulu Öndərimizin siyasi varisi - cənab İlham Əliyev onun ən böyük arzusunu yerinə yetirdi. Azərbaycan əsgəri xalqın zəfər salnaməsini yazdı. Torpaqlarımızın işğaldan azad edilməsində illərin zəhməti var. Azərbaycan dövləti, cəmiyyətimiz, ordumuz bu gücə, qüdrətə dövlət rəhbərimizin fədakar əməyi, dərin zəkası, qətiyyətli addımları sayəsində nail olub”, - deyə YAP Veteranlar Şurasının üzvü əlavə edib.

M.Mərdanov söyləyib ki, bu gün Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində məhz Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri dayanır: “Heç vaxt unutmamalıyıq ki, bu nailiyyətlər böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki onun vaxtilə dediyi “Azərbaycan dünyaya günəş kimi doğacaq” sözləri bu gün gerçəkliyə çevrilib. Azərbaycan bu gün tam müstəqil, güclü dövlətdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ərazi bütövlüyünü tam bərpa edib. Hazırda Azərbaycan inkişafının yeni mərhələsini yaşayır. İnanırıq ki, ərazi bütövlüyü və suverenliyini tam bərpa etmiş Azərbaycan bundan sonra da böyük nailiyyətlər qazanacaq”.

Vətən müharibəsi iştirakçısı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri, ərazi partiya təşkilatının sədri Amil Sefiyev çıxışında bildirib ki, minilliklərin sınağından çıxmış təcrübə göstərir ki, qeyri-adi, fenomenal keyfiyyətlərə, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lideri olmayan xalqlar nəinki müstəqil dövlət yarada bilməmiş, hətta dünya xəritəsindən tamamilə silinmək təhlükəsi ilə də üzləşmişlər. Onun sözlərinə görə, Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili əyani şəkildə göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli bir missiyanın öhdəsindən mətin iradəli, geniş və qlobal dünyagörüşlü, ümumxalq dəstəyinə malik Ümummilli Lider Heydər Əliyev gələ bilərdi: “Heydər Əliyevin dövlət rəhbəri və lider kimi tarixi fəaliyyəti nəsillər üçün böyük bir məktəbdir. Onun dərin yaddaşı, iti məntiqi, mürəkkəb siyasi situasiyalarda qəti qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, analitik baxışı, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi hələ uzun müddət öyrəniləcək və bu barədə çox tədqiqatlar aparılacaq. Onun həyatı, tarixi fəaliyyəti və təcrübələri xalqımızın yalnız bu günü deyil, işıqlı sabahı üçün də perspektivlər açır və millətimizin gələcəyinə böyük nikbinlik yaradır”.

A.Sefiyev qeyd edib ki, Azərbaycan xalqı Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə daim faydalanacaq: “Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycanın dününü və bu gününü yaşadan, gələcək inkişafına etibarlı zəmin yaradan dövlətçilik yoludur. Dahi şəxsiyyətin siyasi irsi Azərbaycan xalqının milli sərvətidir. Sevindirici haldır ki, Vətənə sevgi, xalqa və dövlətə xidmət Ulu Öndərin sədrliyi ilə yaranmış, hazırda isə onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya - Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur”.

A.Sefiyev vurğulayıb ki, Vətən müharibəsi Azərbaycan xalqının çoxəsrlik dövlətçilik, o cümlədən çağdaş hərb tarixinin ən əzəmətli hadisəsidir: “Xalqımızın şərəf və ləyaqət tarixinin qızıl hərflərlə yazılmış səhifələri olan 44 günlük Vətən müharibəsi və qazanılan möhtəşəm Zəfər gələcək nəsillər üçün də əbədi qürur mənbəyi olacaq. İndi dünya Azərbaycan Ordusunun döyüş bacarığından, ruh yüksəkliyindən danışır. Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə Yeni Azərbaycan Partiyasının üzvləri həm döyüş meydanında, həm də arxa cəbhədə, informasiya müharibəsində ən öndə gedənlərdən oldular. Fəxr edirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti kimi mən də 44 günlük Vətən müharibəsinin iştirakçısı olmuşam, cəbhənin bir çox istiqamətlərində ağır döyüş əməliyyatlarında iştirak etmişəm”.

A.Sefiyev deyib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən hazırda uğurla davam etdirilən siyasət hələ uzun illər müstəqil dövlətimizin daha da güclənməsinə, iqtisadi qüdrətinin artmasına, xalqımızın rifahının daha da yüksəlməsinə xidmət edəcək.

Çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova bildirib ki, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti yalnız Azərbaycanın dövlətçilik tarixində deyil, həm də milli irsimizdə, cəmiyyətimizin inkişafında dərin izlər buraxıb. Onun sözlərinə görə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycan yalnız regionun ən güclü dövləti olaraq tanınmaqla qalmayıb, həm də dünya miqyasında öz yerini möhkəmləndirib: “Heydər Əliyevin siyasi irsi yalnız ölkəmizin inkişafına deyil, həm də Azərbaycan xalqının özünənamının artmasına səbəb olub. Onun rəhbərliyi dövründə gənclərin inkişafı üçün atılan addımlar bu gün də öz bəhrəsini verməkdədir. Bu gün Azərbaycan gəncləri Heydər Əliyev ideyalarını, vətənpərvərlik, müstəqillik prinsiplərini rəhbər tuturlar. Vətən müharibəsində şəhid olan gənclərimiz öz qanları ilə Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə aparıb, bu yolda canlarını fəda ediblər. Bu gün həmin gənclərin xatirəsi bizim üçün yalnız keçmişin deyil, gələcəyin də işığıdır”.



S.Qasımova qeyd edib ki, Azərbaycanın möhtəşəm Zəfərinin təməlində Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsi, qətiyyəti, dəmir yumruğu, xalqımızın sarsılmaz birliyi və rəşadətli ordumuzun misilsiz qəhrəmanlığı dayanır: “İndi Azərbaycan bayrağı Cıdır düzünün səmasında, Şuşa qalasında, Laçın qayalıqlarında, Zəngilanın meşələrində, Kəlbəcərin uca dağ zirvələrində, Xankəndi Universitetində əzəmətlə, qürurla, şərəflə dalğalanır”.

“Fəxr hissi ilə vurğulamalıyam ki, işğaldan azad olunmuş torpaqlarda yeni, ən müasir standartlara cavab verən şəhər və kəndlərin qurulmasında gənclər də fəal iştirak edirlər. Biz gənclər hər zaman Ulu Öndərin əziz xatirəsini dərin hörmətlə anırıq. Onun xatirəsi sadəcə bizim deyil, bizdən sonrakı gənc nəsillərin də yaddaşında əsrlər boyunca yaşayacaq. Ulu Öndər Heydər Əliyevin adı təkcə Azərbaycan tarixinə deyil, dünya tarixinə də əbədi həkk olunub”, - deyə YAP Gənclər Birliyinin sədr müavini vurğulayıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Əziz Şuşa, sən azadsan!

## Artıq Şuşanın işğalı ildönümünü qeyd etmirik...

8 may tarixi 28 il ərzində bütün Azərbaycan üçün Şuşa nisgilinin, yurd həsrətinin simvoluna çevrilmişdi. Xalqımız 1992-ci ilin bu tarixini - Şuşanın işğal gününü unutmayıb, unutmayacaq da! Ermənilər 28 il ərzində hər il mayın 8-ni "bayram" kimi qeyd edirdilər. Amma 2020-ci ildə qaysaq bağlamayan Şuşa yaramıza məlhəm, çarə tapıldı... 44 günlük Vətən müharibəsində Şuşa Azərbaycan Ordusu tərəfindən azad edildi. Xalqımız 30 ilə yaxın işğalda qalmış Şuşanı, o ağrılı-acılı günləri, işğal tarixlərini unutmayacaq...




## Şuşa necə işğal olunmuşdu?

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiası qısa müddətdən sonra respublikamıza qarşı hərbi təcavüzlə nəticələndi. Ermənistan tərəfindən ərazilərimiz işğal olunurdu. O dövrdə respublikamızda qeyri-sabitliyin, anarxiyanın, hakimiyyət uğrunda mübarizənin hökm sürməsi Şuşa şəhərinin də işğal olunması təhlükəsini yaratmışdı. Milli Ordu formalaşmadığından yüksək hərbi-strateji əhəmiyyətli Şuşa şəhərinin müdafiəsində yalnız könüllü özünümüdafiə dəstələri iştirak edirdilər. Lakin onların qəhrəmancasına döyüşmələrinə və layiqli müqavimət göstərmələrinə baxmayaraq, təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi.

## Mədəniyyət nümunələrimiz məhv edilmişdi...

Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Ermənistan işğalında qaldığı müddətdə Şuşa demək olar ki, məhv edildi. İşğal dövründə Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey, turizm bazası, şərq musiqi alətləri fabriki dağıdılmış, məbədgah və məscidlər təhqir edilmiş, çox sayda nadir əlyazma nümunələri məhv edilib, 20 kitabxana yandırılıb.

## "Əziz Şuşa, biz səni dirçəldəcəyik"

Şuşa tam 28 il erməni işğalı altında yaşadı. Amma 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarımız, o cümlədən Şuşa şəhəri erməni işğalından azad edildi. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarix yazdı. 2020-ci il noyabrın 8-də Ali Baş Komandan Azərbaycan xalqına müraciətində Şuşanın işğaldan azad olunması müjdəsini verdi: "Əziz Şuşa, sən azadsan, Əziz Şuşa, biz qayıtmışıq, Əziz Şuşa, biz səni dirçəldəcəyik".

Şuşanın azad olunması kimi onun yenidən bərpası da Ulu Öndərin ən böyük hədəflərindən biri idi. Azərbaycan mədəniyyətinin mühüm mərkəzlərindən olan Şuşanın qorunması Heydər Əliyevin xüsusi diqqətində olub. 1977-ci ildə onun təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdı.

Prezident İlham Əliyevin "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!" sözləri təsadüfi deyil. Azad olunduqdan sonra bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilib.

## "Şərqin konservatoriyası"

Ölkə başçısı 2021-ci il mayın 7-də Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin paytaxtı elan olunması haqqında Sərəncam imzaladı. Şuşada "Xarı bülbül" muğam festivalı və "Vaqif" Poeziya günlərinin keçirilməsi ənənə halını alıb. Təsadüfi deyil ki, Şuşa "Şərqin konservatoriyası" adlandırılır. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, korifey sənətkarımız Bülbülün və xan qızı Natəvanın abidələri Şuşa şəhərində bərpa olundu. Vaxtilə işğal altında olan bu abidələr düşmən tərəfindən güllələnmişdi. Bu abidələr Bakıya gətirilərək xarici qonaqlara nümayiş etdirilirdi ki, erməni vandalizmini görsünlər.

1992-ci ilin 8 mayında Şuşanı işğal edən Ermənistan 29 il sonra 8 may tarixini Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olması faktı ilə qarşıladılar. Bununla dünya ermənilərinə mesaj verildi: "Şuşi" adlı bir şəhər yoxdur, olmayıb və heç vaxt olmayacaq!...

*Yeganə BAYRAMOVA*

# Bakı - Hanoy: Yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri









Daim müstəqillik, suverenlik prinsiplərindən çıxış edən Azərbaycan özünün multiregional xarici siyasət kursunda həm yaxın, həm də uzaq coğrafiyalarda yerləşən ölkələrlə münasibətlərini qarşılıqlı hörmət və maraqlar əsasında genişləndirməyə çalışır. Belə ölkələrdən biri də Vyetnamdır. Prezident İlham Əliyevin bu günlərdə Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibəsində bildirdiyi kimi, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir.

**Çətin sınaqlardan keçən ölkə**

Vyetnamı çətin sınaqlardan keçən ölkə kimi də səciyyələndirmək mümkündür. Vyetnam xalqı cari il aprelin 30-da Vyetnam müharibəsinin başa çatmasının 50 illiyini təntənə ilə qeyd etdi. Söhbət tarixi nəticələrlə - Vyetnamın birləşdirilməsi ilə başa çatan müharibədən gedir. Ölkənin bütövlüyünün təmin edilməsi heç də asan başa gəlməyib. Vyetnam xalqı böyük fədakarlıqlar göstərməklə XIX və XX əsrlərdə Fransa müstəmləkəçiliyinin, digər istilaçı dövlətlərin hərbi müdaxiləsinin məşəqqətlərini arxada qoymağı bacarıb. Hazırda ölkə inkişaf dövrünü yaşayır. Vyetnamın keçdiyi şərəfli yolda dost ölkələrin və xalqların hərtərəfli dəstəyi əvəzsiz olub. Qürur hissi ilə demək olar ki, Vyetnamın müharibədən sonrakı bərpasına, xüsusən də neft-qaz sənayesinin qurulmasına Azərbaycan xalqı da sanballı töhfələr verib.

Bu dəstəyin, habelə xalqlarımız arasında dostluğun yaranmasının tarixi 1959-cu ilə gedib çıxır. Ölkəsinin bərpası ilə əlaqədar dost dəstəyi üçün keçmiş Sovet İttifaqına səfər edən Vyetnamın ovaxtkı Prezidenti Ho Şi Min ölkəsinin əsas təbii sərvətlərindən olan neft yataqlarının kəşfiyyatı və işlənməsi üçün yollar axtarırdı. Bu axtarış onu həmin il iyulun 23-də Bakıya gətirir.

Əslində, Ho Şi Minin Bakı səfərini Vyetnamın neft-qaz sənayesinin başlanğıcı hesab etmək olar. Çünki həqiqətən də tam azad olandan və birləşəndən sonra Vyetnamda neft-qaz sənayesinin qurulmasında Azərbaycan neftçiləri tarixi xidmətlər göstəriblər. Vyetnamın neft yataqlarının kəşfiyyatı və işlənilməsi məqsədilə 1981-ci ildə "Vietsovpetro" Sovet-Vyetnam birgə müəssisəsi yaradılır və Vyetnamın neft yataqlarının kəşfiyyatı, hasilatı üçün Azərbaycanın qabaqcıl neft mühəndisləri, geoloqları, ixtisaslaşmış işçiləri Vyetnama ezam olunurlar. Bundan başqa, Azərbaycandan bu ölkəyə neft sənayesinə aid xeyli sayda texnika və avadanlıq gətirilir. Şirkətin 1981-1984-cü illərdə ilk baş direktoru azərbaycanlı mütəxəssis Cəlal Məmmədov, geologiya bölməsinin ilk rəhbəri isə Müslüm Vəliyev olub.

**Qarşılıqlı səfərlərlə möhkəmlənən dostluq**

Azərbaycanla Vyetnam arasında dostluq münasibətlərinnin möhkəmlənməsində qarşılıqlı səfərlərin xüsusi rolu olub. Prezident İlham Əliyev bəhs olunan müsahibəsində o dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 1983-cü ildə Vyetnamda səfərdə olmasını xatırladıb.

Böyük siyasətçi Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə səfər edən ilk yüksəkvəzifəli xarici dövlət rəsmisi idi. Əslində, həmin səfərin Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Çünki qanlı müharibədən sonra təzəcə sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda dahi Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Məhz həmin səfərdən sonra Heydər Əliyev sovet rəhbərliyini Vyetnama iqtisadi və elmi-texniki kömək göstərməyin zəruriliyinə inandıra bilmişdi. Onun səyləri, Bakıdan gətirilən əlavə azərbaycanlı mütəxəssislərin və texnikanın cəlb edilməsi nəticəsində Vyetnamda ilk neft proqnozlaşdırıldığından xeyli əvvəl - 1986-cı ilin iyununda hasil edilir. Heydər Əliyevin 42 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri təkcə keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin dərinləşməsi baxımından deyil, həm də Vyetnam xalqının Azərbaycana isti münasibətinin formalaşmasında xüsusi rol oynayıb.

Azərbaycanla Vyetnam arasında dostluq münasibətləri məhz həmin təmələ söykənərək uğurla inkişaf edir. Prezident İlham Əliyev 2014-cü ildə Vyetnama dövlət səfərinə getməsini və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın Azərbaycana rəsmi səfərə gəlməsini xatırladıb. Bildirldiyi kimi, bu səfərlər iki dövlət arasında münasibətlərdə yeni səhifə açıb və onların gələcək inkişafına təkan verib.

**İqtisadi sahədə böyük əməkdaşlıq potensialı**

Azərbaycanla Vyetnam arasında dövlətlərarası münasibətlər hər iki tərəfdən xoş mərama əsaslanır. Xarici işlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir. Prezident İlham Əliyevin bildirdiyi kimi, ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir. Hakim partiyalar arasında əməkdaşlıq da iki ölkənin münasibətlərinin inkişafına təkan verir. 2023-cü ilin noyabrında Hanoyda Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi imzalanıb.

Getdikcə intensivləşən fəal siyasi dialoq həmçinin iqtisadi sahədə müxtəlif istiqamətləri əhatə edən əməkdaşığa güclü təkan verir. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirilib. Eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. "Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur", - deyə dövlətimizin başçısı vurğulayıb.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərirlər. 2019-cu ildə Vyetnamı təmsil edən "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb.

**Heydər Əliyev Fondunun Vyetnamla bağlı layihələri**

Azərbaycanın Vyetnama dəstəyi təkcə neft sənayesi mütəxəssisləri və avadanlıq göndərməkdən ibarət olmayıb. Sovet dövründə minlərlə vyetnamlı Dövlət Neft və Sənaye Universiteti başda olmaqla Azərbaycanda müxtəlif sahələr üzrə təhsil alıblar. Onlar ölkələrinə qayıtdıqdan sonra müxtəlif vəzifələrdə çalışaraq, Vyetnamın inkişafına töhfələr veriblər. Azərbaycanın Vyetnamda səfirliyi açılandan sonra Bakının vyetnamlı məzunları səfirliyimizin dəstəyi ilə təşkilatlanaraq, Azərbaycan-Vyetnam Dostluq Assosiasiyası yaradıblar.

Perspektivdə Azərbaycanla Vyetnam arasında münasibətlər müxtəlif istiqamətlərdə genişəndirlə bilər. Prezident İlham Əliyev müsahibəsində bir sıra mühüm istiqamətlər sadalayıb ki, onların sırasında təhsilə xüsusi diqqət çəkib. "Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər", - deyə dövlətimizin başçısı vurğulayıb.

Mədəni-humanitar əməkdaşlıqdan bəhs edərkən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vyetnamla bağlı layihələrini xüsusi vurğulamaq lazımdır. Vyetnamın Hazianq əyalətində ucqar yaşayış məntəqələrindən olan Ziap Çunq qəsəbəsində ibtidai məktəb binasının inşası Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürüdür. Bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Vyetnamda səfərdə ikən Heydər Əliyev Fondunun xeyirxah missiyasının daha bir təzahürü olaraq görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə, Hanoy Ticarət və Turizm Kollecinə qurumun maliyyə dəstəyi təqdim edilib. Leyla Əliyevanın səfəri zamanı Vyetnam Sosialist Respublikasının vitse-prezidenti Vo Ti An Suan və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşlərində xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət təşkilatları səviyyəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

*Mübariz ABDULLAYEV*

# Xatirələrdə yaşamaq haqqı

**Ömürdən illər keçir, illər köçür. Yadda qalanı da olur, unudulanı da...**

Zəngilanda yaşadıqlarım da ömürdü, Zəngilandan uzaqlarda Zəngilansız olmayan illərim də. Hər dəfə bu illəri düşüncələrinin işığında ömürləşdirənlərlə söhbətləşəndə bir gerçəkliyi mən də sabahlarımın mənəvi yolgöstərəni bilmişəm: Dürüst yaşa, mərhəmətli ol, insanları, insanlığı sev, unutma ki, el-obaya sevgin Vətənə sevgindi. Sən həm də bu sevgi ilə tanınacaqsan, seviləcəksən. Yeniyetməliyimdə də, gəncliyimdə də belə yaşayanlarla söhbətləşməyi zamandan ömrümə qazanc bilmişəm.

Həmsöhbətlərim ünlü zəngilanlılardan söz düşəndə Ziyad və Atlıxan qardaşlarından da danışardılar. Həm də böyük ehtiramlarla deyərdilər ki, ekiz idilər. Təkcə bioloji baxımdan deyil, həm də xasiyyət baxımından, təfəkkür baxımından, düşüncə baxımından, Zəngilana sevgi baxımından, bir də dünya duyumu baxımından...

Ziyad İsgəndər oğlu 1911-ci ildə Zəngilan rayonunun Məlikli kəndində anadan olub. Zəngilan kənd məktəbində təhsil alıb. Kənd təsərrüfatına sevgisi olub. Bu sevgi hardan yaranmışdı? - torpağa sevgidən, ağsaqqalların torpaqla ömür həmdəmliyi səviyyəsində ünsiyyətini görürdü, düşünürdü, duyduqları marağa çevrilirdi. Özümü qət etmişdi, məsləhətmi görmüşdülər, 1927-ci ildə Zaqatalada kənd təsərrüfatı texnikumuna daxil oldu. 1931-ci ildə texnikumu bitirdikdən sonra Zəngilan rayon torpaq şöbəsində aqronom işləyib. Müəllimlərinin bir məsləhəti onun da maraq dünyasının işığına dönübmüş: kamil mütəxəssis olmaq üçün ali təhsil mütləqdir. Bu məsləhət onun ömür yolunu istiqamətləndirib; Azərbaycan Kənd Təsərrüfatı İnstitunu bitirdikdən sonra 1935-ci ildə Azərbaycan SSR Torpaq Komissarlığının məsləhəti ilə Maştağa rayon torpaq şöbəsinin müdiri təyin olunub.

Yaradıcılıq insanda fitrətən olur. SÖZlə ünsiyyət, SÖZə saygı, düşüncələri SÖZlə ifadə etmə bacarığı hər adama nəsib olmur. Ziyad İsgəndər oğlu belə bir istedada malik imiş. Onu 1936-cı ildə Azərbaycan KP Maştağa rayon komitəsinin qərarı ilə "Abşeron kolxozçusu" qəzetinin baş redaktoru vəzifəsinə təyin etdilər. Kənd təsərrüfatı mütəxəssisi hara, qəzet hara?" - deyən oldumu, olmadımı, bilinmədi, bilinən bu oldu ki, təyinat özünü doğrultdu, qəzet oxucularla daha səmimi "kəlmələşməyə" başlamışdı. Belə təyinatlar o dövrün kadr hazırlığı mərhələsi imiş.



*Bayram MƏMMƏDOV,*
*Əməkdar müəllim*

1938-ci ildə Maştağa MTS-də aqronom işləyən, 1939-1942-ci illərdə Azərbaycan Elmlər Akademiyası Botanika İnstitutunun aspiranturasında oxuyan Ziyad Məmmədov 1942-ci ildə Zəngilan Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri təyin edilib. O illərdə sovet ideologiyası xarici dövlətlərlə həmsərhəd rayonlarda gerçək inkişafdan daha çox görünən inkişafa daha şox diqqət yetirirdi və rayon rəhbərliyinin də fəaliyyəti, əsasən, bu istiqamətdə qurmağı tələb edirdi. İranla sərhəd olan Zəngilanda da beləydi. Ziyad Məmmədov bu tələblə kifayətlənmirdi, rayonda sosial inkişafın şəbəkələrinin gerçək inkişafının cəfakeşiydi. Əksər hallarda öz təşəbbüsü ilə...

"Əməkdə fərqlənməyə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olunmuşdu. 1947-ci ildə rayonda bütün sahələr üzrə, bu sıradan pambıqçılıqda plan və tapşırıqlar artıqlaması ilə yerinə yetrilmişdi. Rayonun tarixində indiyəcən olmyan nailiyyət əldə edilmişdi. Moskva bunu yüksək dəyərləndirdi. 1948-ci il martın 10-da SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə digər 13 nəfərlə birlikdə Zəngilan Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Ziyad Məmmədov da Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Bu təltif onun gerçək niyyətinin bir qədərləngidilməsində vəsilə oldu. 1953-cü ilə kimi burda işlədi...

Ziyad müəllimlə bağlı xatirələr, deyilənlər, xatırlananlar həm tarixdir, həm də bir insana ehtiramdır.

O vaxtların rayon rəhbərliyinin dəbdəbəli kabinetləri, iş şəraitləri, rahat xidməti və şəxsi maşınları olmayıb. Rayon rəhbərlərinin istifadəsində Amerika istehsalı olan minik maşını, bir də minik atları olarmış. Belə bir şəraitdə Ziyad Məmmədovun əsl təşkilatçılıq, rəhbərlik və işgüzarlıq məharəti özünü göstərdiyi illər sonra da ehtiramla xatırlanır.

50-ci illərin əvvəlləri haqqında bu xatırlamalar nə yaxşı yaddaşlardan tarixə, tarixdən yaddaşlara köçür. Bu da vətəndaşlıq missiyasıdı. Zəngilandan Mincivan qəsəbəsinə 11 kilometrlik yol çəkilirmiş. Bu yol həm də dağlıq yerlərdən keçdiyi üçün onu genişləndirmək çox çətin imiş. Rayon rəhbərliyi bu yolun dəmir yolunun kənarının keçilməzliyini aradan qaldırmaqla çəkilməsini qərara alır. Yol iməciliklə çəkilirmiş. Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Ziyad Məmmədov işin əsas təşkilatçılarından biri kimi müntəzəm olaraq bütün iş sahəsi boyu kollektivlərə baş çəkirmiş, hal-əhval tuturmuş, işləyənlərə özü də kömək edərmiş.

Pirçivan kəndinə "Çeşmə gözü"ndən



su çəkilməsi də o illərin tarixidir. Ziyad müəllim bu tarixin də yaxın iştirakçısı olub, su çəkilişi Ziyad Məmmədovun təşkilatçılıq qabliyyətinin açılmasını aydın şəkildə göstərmişdi.

Yaxşılıq da imandandır, yaxşılığı yaşatmaq da. Yaxşılığı unutmamaq insanın daxili zənginliyidir. Unutmursan, mənən rahat olursan, sənə elə gəlir ki, ruhun bundan rahatlıq tapır. Min illərdi belə yaşanılıb, indi də belə yaşanılır. Ziyad Məmmədov xeyirxah insan olub, heç kimdən köməyini əsirgəməyib. Qanunsuzluğa yol verməsə də könüllər alıb, indi könüllərdə yaşayır. Soltan Vəliyev əməkdar həkim olub, 35 il Zəngilan səhiyyəsinə rəhbərlik edib. Azərbaycan Tibb İnstitutunu bitirdikdən sonra özü həkim işləmək istəsə də Zəngilana səhiyyə şöbəsinin müdiri göndəriblər. Çəkinə-çəkinə Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Ziyad Məmmədovun qəbuluna gedib. Göndərişi göstərib, ancaq cərrah olmaq istədiyini bildirib. Ziyad müəllim xeyli fikirləşəndən sonra məktubu Soltanın özünə qaytarıb, deyib ki, bu məktubu nə sən mənə göstərmisən, nə mən səni görmüşəm. Sən əvvəlcə cərrah işlə, sonra baxarıq. Bu cavab Soltan Vəliyevin taleyini arzuladığı səmtə yönəldib...

Ali təhsil almışdı. Yüksək vəzifədə işləyirdi. Ancaq ruhunun yaradıcılıq işığı onu tədqiqatlara çəkirdi. Elmi məqalələr oxuyurdu, düşüncələrini oxuduqlarının fonunda sistemləşdirirdi. Hərdən düşüncələrinə sarılan işıq oxuduqlarının işığı ilə qoşalaşırdı. Onda ruhən Bakıya, böyük laboratoriyalara meyillənirdi...

Bakıya gəldi. Niyyətinin şəhərinə, arzularını gerçəkləşdirməyə, elmi düşüncələrinin işığını ümumiləşdirməyə. Həm də 43 yaşında! Yaş həddi istedadın açdığı cığırda yel əsdirə bilməz. Ziyad İsgəndər oğlu niyyətini gerçəkləşdirməyə zamanın yaş sərhədini aşaraq gedirdi. Bitkilərdə fotosintez proseslərini öyrənəcəkdi. Ziyad müəllim biologiya elminin maraqlı və faydalı sahəsi olan bitki fiziologiyası sahəsini, bitkilərdə gedən fotosintez prosesinin bitkilərin məhsuldarlığı ilə əlaqəsini geniş öyrənirdi. Onun elmi işləri 40-dan çox elmi əsərdə, bir neçə kitabçada və 1991-ci ildə çap etdirdiyi 317 səhifəlik "Kənd təsərrüfatı bitkilərinin qidalanması və məhsuldarlığı" kitabında öz əksini tapmışdır.

Ziyad Məmmədov biologiya elmləri namizədi alimlik dərəcəsi almışdı. 1962-ci ildə ona baş elmi işçi adı verilmişdi. 1967-ci ildən elmi fəaliyyətini Azərbaycan EA Genetika və Seleksiya İnstitutunda davam etdirirdi.

Müxtəlif buğda növ və hubridlərində fotosintez göstəricilərini öyrənən biologiya elmləri namizədi Ziyad Məmmədovun tədqiqatları sayəsində yüksək fotosintez potensialına malik buğda növləri müəyyənləşdirilmişdi və seleksiyaçılar onun tövsiyələrindən bəhrələnəcəkdi.

Ziyad Məmmədov həyatının ixtiyar çağında " Qidalanma fiziologi və kənd təsərrüfatı məhsulunun idarə edilməsi amili kimi"mövzusunda doktorluq dissertasiyasını tamamlasa da səhhətində yaranan problemlərə bağlı müdafiə edə bilməmişdi.

Akademik Cəlal Əliyev yazırdı ki, "Ziyad müəllimlə işlədiyim dövrdə mən onun işə necə böyük məsuliyyətlə yanaşdığını, istər labortoriyada, istərsə də çöl şəraitində cəsarətlə işlədiyini görürdüm".

Akademik Teymur Bünyadovun dediklərini insanı xarakterizə etmək üçün gərəkli olan bir məqamın ifadəsi bildim: "...Mən tez-tez elmi axtarışımla əlaqədar böyük insan, böyük alim, xalqsevər akademik İmam Mustafayevin yanına gedəndə Ziyad müəllimlə görüşərdim. Aman Allah! Ziyad müəllim necə utancaq, abırlı, həyalıydı".

Tanrının sevərək yaratdığı insanlardan biri olan elm fədaisi Ziyad müəllim heç bir şeydən qorxmayan, hər vaxt öz sözünü deyən bir adam idi. Mülayim təbiətli, xoşxasiyyət Ziyad müəllimdə bütün insani keyfiyyətlər toplanmışdı, bu mehriban çöhrəli insanla ünsiyyətdə olmaq çox xoş idi...

Ata övlad üçün qürur ünvanıdır. Bu qürur el-obanın da qürurudursa, daha möhtəşəm, daha əzəmətli, daha yaşarı qürur olur. Ataya sevgi ictimaiyyətin səmimi ehtiramı ilə tamamlananda zamanın da, ruhun da fövqündə dayanır. Zəngilanlıların və AMEA-nın əməkdaşlarının böyük ehtiramla xatırladığı vətənpərvər bir ziyalının oğlunun atası haqqında dediklərini milli mentalitetimizin zərrəsi bilmək günah olmazdı. Mərhum oğlu tibb elmləri namizədi Namiq Məmmədov deyirdi ki, "Çox yerdə bizi ona görə tanıyırlar. "Ziyadın övladıdır" - deyirlər. Bundan şərəfli an, bundan şərəfli hiss ola bilərmi? Xalqın sevimlisi olmaq hər kəsə qismət olmur. Atam öz gözəl qəlbi ilə camaat arasında sevilirdi. Biz də onun adının həmişə şərəflə çəkilməsi üçün çalışmışıq ..."

Ziyad müəllimin qızı, fizika-riyaziyyat elmlər doktoru, Bakı Dövlət Universitetinin Yarımkeçiricilər fizikası kafedrasının professoru Adilə Abbasova atasını xatırlayanda həmişə ömrünün dünənlərini xatırlayır. O dünənlər tarix kimi xatırlanır, tarixdən ömürə düşən işıq kimi xatırlanır: "...Mən həyatda nə qazanmışamsa, -bunlar isə az deyil, - atama borcluyam. O, həmişə mənə : "Oxu!" deyər, qiymətlərimlə maraqlanar, dərslərimə kömək edərdi. İndiki BDU-ni bitirəndən sonra aspiranturaya daxil oldum. Mən Moskvaya da onun məsləhəti ilə getdim...". Bu kəlmələrə xatirə biçimində mənəvi etiraf, mənəvi etiraf biçimində xatirə deyərdim.

Adilə xanım atasını atasızlıq ağrılarıyla anır, xatirələri bu ağrıları üstələyirmi, bu ağrılar xatirələrini sıxırmı, nə özü bilər, nə də bu xatirələri tarix kimi dinləyənlər: "...O, mənim həyat idealım idi. Atam həm də mənim dünyam idi...". Elə gözəl günlərdən uzaqlaşmağın övladı kövrəltməsi də böyük sevginin təzahürüdü. Məktəb yaşlı övladı ilə bu səviyyədə dost olmaq ata ürəyinin böyüklüyünün ifadəsidir. Bu fikirlər mənə xalq yazıçısı İsa Muğannanın bir fukrini xartırlatdı: Ona irad tuturlar ki, niyə atandan çox yazırsan. Qüdrətli yazıçı qətiyyətlə deyir: Çünki atamı hamıdan yaxşı tanıyıram. Övladın atasını yaxşı tanıması da mənəvi zənginlikdir, onun haqqında çəkinmədən gerçəkləri səmimiyyətlə danışmaq da...

Ziyad İsgəndər oğlu Məmmədov vətənpərvər ziyalı idi. 1995-ci il sentyabrın 25-də dünyadan köçdükdən sonra da xoş xatirələrlə, ehtiramlarla anılır. Ananların hamısı onu gözəl insan, qayğıkeş insan, insanpərvər insan, dostluğa sədaqətli insan, ... kimi epitetlərlə xatırlayır. Dilimizdə "gözəl insan" söz birləşməsi böyük ehtiramı ifadə edir. Bu ifadə qayğıkeşliyi də, humanizmi də, xeyirxahlığı da, sədaqəti də, özündə birləşdirən ifadədir. Mən bu ehtiramı Ziyad İsgəndər oğlu Məmmədova da şamil edirəm, həm də böyük qürurla, Zəngilanı sevmiş bir insana Zəngilanı sevən bir insan kimi...

# Naxışlara düzülən mədəniyyət nümunələrimiz...

## Beynəlxalq Xalça Festivalı keçirildi!

*Yeganə*

Ötən gün İçərişəhər, Qoşa Qala meydanında keçirilən Beynəlxalq Xalça Festivalı uğurla başa çatıb. Üç gün davam edən festivalın əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini beynəlxalq miqyasda tanıtmaq, bu qədim sənət növünün zəngin irsini və müasir inkişaf perspektivlərini nümayiş etdirmək, eləcə də müxtəlif ölkələrin xalçaçılıq ənənələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparmaq olub.

Forumda Özbəkistan, Türkmənistan, Albaniya, Almaniya, İngiltərə, Latviya, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Rusiya, Yaponiya, İspaniya və digər ölkələrin nümayəndələri iştirak edib. 200-dən çox iştirakçının - sənətşünaslar, xalçaçı ustalar, tələbələr və incəsənət xadimlərinin iştirak etdiyi Forumda Azərbaycan xalçalarının tarixi, estetik özəllikləri və dünya mədəni irsindəki yeri haqqında geniş təqdimatlar yer alıb.

**Yaddaşımız, kimliyimiz və tariximiz...**

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarə Heyətinin sədri Rüfət Mahmud bildirib ki, Beynəlxalq Xalça Festivalının açılışı paytaxtımızda ilk dəfədir ki qeyd olunur: "Bu, festival bir çox mədəniyyətləri qovuşduran, ənənəni və incəsənəti birləşdirən tədbir oldu. Min illərlə tarixə şahidlik etmiş bu daş divarların olduğu məkanda xalça festivalının keçirilməsi xüsusi önəm daşıyır. Çünki İçərişəhərin küçələrin özü, daşları, keçidləri, binaları xalça naxışları kimi bir-biri ilə bağlı, harmonik və mənalıdır. Buranın ruhunda xalça var, bura xalçaçılığın yaddaşıdır. Xalça bizim üçün sadəcə bir sənət nümunəsi deyil. O bizim yaddaşımız, kimliyimiz və tariximizdir. Onun içində nənələrimizin duaları, analarımızın arzuları, ustadlarımızın sənətə olan sevgisi yaşayır. İçərişəhər xalçaçılıq sənətinə dərin kökləri ilə bağlıdır. Tarixən bu şəhər xalçaların ticarət mərkəzlərindən biri olub, yerli ustalar öz sənətlərini nəsildən-nəslə ötürərək nadir kompozisiyalar yaradıblar. Festivalımız dünyanın müxtəlif ölkələrindən gələn sənətkarları bir araya gətirərək xalçaçılıq irsini qorumaq və gələcək nəsillərə ötürmək üçün mühüm bir platforma yaratdı. İnanıram ki, bu festival yalnız sənəti deyil, dostluq və əməkdaşlıq ruhunu da toxuyacaq".





**Xalçalarımıza beynəlxalq bazarda böyük tələbat var**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı bildirib ki, Azərbaycan xalçaları əsrlər boyu öz yüksək keyfiyyəti, unikal naxışları və zəngin tarixi ilə dünyada tanınıb: "Bu sənət nümunələrinin estetik və mədəni dəyəri, həmçinin əl işlərinin nadirliyi onların beynəlxalq bazarda böyük tələbat görməsinə səbəb olur. Azərbaycan xalçaçılıq sənətinin nümunələri Nyu-York, London və digər beynəlxalq mədəniyyət mərkəzlərində keçirilən sərgi və tədbirlərdə uğurla təqdim olunub. Bu sərgilər ölkənin mədəni irsinin tanıdılması və xalçaların ixrac potensialının artırılması baxımından mühüm rol oynayır. Xalçaçılıq sənəti ölkənin sosial-iqtisadi həyatında önəmli rol oynayır. Xalçaçılıq qadınların işlə təmin olunmasında mühüm sahələrdən biridir".

**Mədəniyyətimizi özündə yaşadan nümunələr**

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri, Əməkdar incəsənət xadimi Emin Məmmədov bildirib ki, bu gün Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək vacibdir: "Ötən il Milli Xalça Festivalı təşkil etmişdik. Həmin uğurun davamı olaraq bu il ölkəmizdə ilk dəfə Beynəlxalq Xalça Festivalına start verdik. "Azərxalça"nən 14 emalatxanasında 500-dən çox toxucu fəaliyyət göstərir. Qurumun unikallığı ondadır ki, burada çalışanların 85 faizi kənd qadınlarıdır. Tədbir iştirakçıları festival günlərində həmin toxucuların özləri və toxuduqları xalçalarla tanış olaraq, həm də milli adət-ənənələrimizi, mədəniyyətimizi özündə yaşadan nümunələrimizi gördülər".

**400-dən artıq xalçadan istifadə olunub**

Üç gün davam edən festival İçərişəhərin gədim küçə və meydanlarında əsl bayram ab-havasında keçirilib. İştirakçı ölkələrin milli pavilyonları qurularaq ziyarətçilərə müxtəlif xalçaçılıq məktəbləri, texnikaları və ənənələri nümayiş etdirilib. Festival müddətində yalnız İçərişəhərin bəzədilməsində "Azərxalça" ASC tərəfindən hazırlanmış 400-dən artıq xalçadan istifadə olunub. Minlərlə insan bu günlər ərzində festivalı izləmək üçün İçərişəhərə təşrif buyurub ki, bu da tədbirin həm yerli, həm də beynəlxalq miqyasda böyük maraq doğurduğunu nümayiş etdirib.

Azərbaycan xalçaçılıq sənətinin qədim tarixindən müasir dövrə uzanan inkişaf yolunu nümayiş etdirən Beynəlxalq Xalça Festivalı ölkəmizin mədəni irsinin beynəlxalq səviyyədə təbliğində əhəmiyyətli rol oynadı. İçərişəhərin tarixi mühitində bu cür genişmiqyaslı tədbirlərin uğurla təşkil olunması dövlətçilik tariximizi, həmçinin mədəniyyətimiz təbliği üçün əsas vasitədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Hindistanın qəfil hücumuna ağır cavab...

## Pakistan BMT Nizamnaməsinə uyğun addımlar atır

Xəbər verildiyi kimi, Hindistan Pakistana raket zərbələri ilə hücum edib. Aprelin 22-də Cammu və Kəşmir bölgəsində yerləşən Pahalqam şəhərində baş vermiş hadisənin ardından gərginləşən münasibətlər hərbi toqquşmaya yol açıb. Belə ki, Hindistan Kəşmir bölgəsinə raket zərbələri endirib. Türkiyə mətbuatı xəbər verir ki, “Sindur” adlanan əməliyyata başladığını elan edən Hindistan Kəşmir bölgəsində yerləşən Kotli, Bahavalpur və Muzəffərabad şəhərlərinə raket zərbələri endirib. Zərbələr zamanı “yer-yer” tipli ballistik raketlərdən istifadə olunub. Ümumilikdə, hücum zamanı doqquz obyektin vurulduğu bildirilib.

**Pakistanın cavabı...**

Qısa zamanda Hindistanın hücum zərbələri cavablandırılıb. Pakistan zərbələrdən az sonra genişmiqyaslı hücumlara başlayıb. “Milliyyet”in yazdığına görə, Pakistanın müdafiə naziri Xavadja Asif “Hindistan qorxaqlar kimi hücum etdi - cavabımız daha sərt olacaq”, - deyə bildirib. Nazir Hindistanı açıq döyüşə səsləyib və bildirib ki, “Cəsarətiniz çatırsa, döyüş meydanına çıxın və bu məsələni kişi kimi həll edək”. Dehlinin iddialarının yalan olduğunu bildirən müdafiə naziri Asif Hindistanın dinc sakinləri hədəf aldığını bildirib. “Hindistan qəsdən mülki əhalini hədəf alıb”.

Bildirilib ki, Pakistanın zərbələri həm sayca, həm də dəqiqliyinə və gücünə görə də Hindistanın ilkin hücumunu üstələyib.

**Fransa təyyarələri vuruldu....**

Pakistanın Baş naziri Şahbaz Şərif isə Hindistanın hava zərbələrinə cavab olaraq ölkəsinin “bütün gücü ilə cavab vermək hüququna malik olduğunu” bəyan edib. Şərif Hindistanın Pakistanın bölgələrinə həyata keçirdiyi raket hücumları ilə bağlı “X” hesabında yaydığı açıqlamasında Pakistan ordusunun “düşmənlə necə davranacağını yaxşı bildiyini” ifadə edib. Baş nazir qeyd edib ki, “Hindistanın öz məqsədlərinə çatmağa imkan verilməyəcək”. Bu açıqlamadan dərhal sonra Milli Təhlükəsizlik Şurasının təcili iclası çağırılıb.

## Şokda olan Dehli vasitəçi axtarır



Hərbi mənbələrin məlumatına görə, Hindistan Hərbi Hava Qüvvələri Pakistan ərazisinə qarşı Fransadan alınmış “Rafale” qırıcıları, “SCALP” qanadlı raketləri və “Hammer” bombalarından istifadə edib. Pakistan ordusu isə 5 Hindistan hərbi təyyarəsinin vurulduğunu bəyan edib. Bu təyyarələrin 3-ü Fransa istehsalıdır.

**Ağ bayraq qaldırıldı...**

Hindistanın hücumlarına cavab verən Pakistanın qarşısında Çora kompleksində ağ bayraq qaldırılıb. Belə ki, Pakistan ordusu nəzarət xəttində düşmənin mövqelərinə ciddi zərbə endirib. Nəticədə Hindistan ordusu Çora kompleksi postunda ağ bayraq qaldıraraq geri çəkilməyə məcbur olub. Təhlükəsizlik mənbələrinin verdiyi məlumata görə, “ağ bayraqla Hindistan ordusu məğlubiyyətini etiraf edib. Pakistan Ordusu nəzarət xəttində yerləşən Çora sektorunda düşmənin mövqelərini hədəfə alıb.

Xarici mətbuat yazır ki, Dehli sərt cavabdan sonra vasitəçilər yolu ilə gərginliyi azaltmağa çağırış edib. Hindistan ərəb ölkələrinə, xüsusən də Birləşmiş Ərəb Əmirliklərinin rəsmilərinə müraciət edərək Pakistanla sərhəddə gərginliyin azaldılmasına köməklik istəyib. BƏƏ-nin xarici işlər naziri Şeyx Abdullah bin Zayed bəyanatla çıxış edərək Hindistan və Pakistanı təmkinli olmağa, gərginliyi azaltmağa, regional və beynəlxalq sülhü təhdid edən addımlardan qaçmağa çağırıb.

**Pakistan xalqı ilə həmrəyik...**

Vurğulayaq ki, Azərbaycanla dost, qardaş ölkə olan Pakistanın hücuma məruz qalması ölkəmizdə də narahatlıq yaradıb. Azərbaycanın Xarici İşlər Nazirliyi Hindistan ilə Pakistan arasında gərginliyin daha da artması ilə bağlı narahatlığını ifadə edib. Yayılan bəyanatda Pakistana qarşı bir neçə mülki şəxsin ölümü və yaralanması ilə nəticələnən hərbi hücumlar pislənib. “Pakistan xalqı ilə həmrəy olaraq günahsız qurbanların ailələrinə başsağlığı verir və yaralananların tezliklə sağalmasını arzu edirik. Bütün tərəfləri təmkinli olmağa və münaqişəni diplomatik yollarla həll etməyə çağırırıq”, - XİN-in bəyanatında qeyd olunub.

Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin “X” sosial media hesabında Azərbaycana təşəkkür edib. “Hindistanın günahsız mülki şəxslərə qarşı hücumu ilə bağlı Azərbaycanın Pakistana davamlı dəstəyini çox yüksək qiymətləndiririk”. Səfir, həmçinin qeyd edib: “Pakistan və Azərbaycan qardaş olaraq daim birlikdə olacaqlar!”

**Tramp narahatdır - BMT TŞ məlumatlandırılıb...**

ABŞ prezidenti Donald Tramp Hindistan və Pakistan arasındakı münaqişədən narahatlıq keçirdiyini bildirib. “Milliyyət”in yazdığına görə, Tramp bu qarşıdurmanın çox tez bitəcəyinə ümid etdiyini deyib.

BMT-nin baş katibi Antonio Quterreş də Hindistanın Pakistana təcavüzündən dərin narahatlığını ifadə edib və son dərəcə təmkinli olmağa çağırıb. BMT-nin sözçüsü Stefan Dujarrik “Anadolu Ajansın” müxbirinə məsələ ilə bağlı yazılı açıqlama verib. Düjarrik Hindistanın hərbi əməliyyatlarından dərin narahatlığını ifadə edib. “Dünya Hindistan və Pakistan arasında hərbi münaqişədən narahatdır”, - deyən Düjarrik hər iki ölkəni maksimum təmkinli olmağa çağırıb.

Pakistanın BMT-dəki Daimi Nümayəndəliyi isə qurumun baş katibini, Baş Assambleyanın sədrini və Təhlükəsizlik Şurasının sədrini Hindistanın Pakistana qarşı açıq təcavüzü, onun suverenliyini və beynəlxalq hüququ pozan, beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaratdığı barədə məlumat verib”. Bəyanatda BMT Təhlükəsizlik Şurasına məlumat verilib ki, Pakistan BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulan özünümüdafiə hüququnu qorumaq üçün “istənilən vaxt və yerdə” təcavüzə lazımi şəkildə cavab vermək hüququnu özündə saxlayır.

*P.İSMAYILOV*

# 51-ci ştat qurmaq arzusu ilə...

## Tramp Kanadanı ABŞ-a birləşdirmək istəyir

Amerika Birləşmiş Ştatları (ABŞ) və Kanada uzun illər ərzində bir-birinin etibarlı ticarət tərəfdaşı kimi tanınıb. İki ölkə arasında hərbi sahədə güclü əməkdaşlıq olub. Donald Tramp ABŞ Prezidenti seçildikdən sonra isə ikitərəfli münasibətlər gərginlik mərhələsinə daxil olub ki, bunun da əsas səbəbi Ağ Evin yeni sahibinin Kanadanı ABŞ-ın 51-ci ştatı kimi görmək istəyini publik şəkildə bildirməsidir. D.Trampın qələbəsindən dərhal sonra başlayan bu “dialoq” Kanada rəsmilərinin və cəmiyyətinin etirazları fonunda sonradan müəyyən qədər səngisə də, bu günlərdə yenidən aktivləşib. Belə ki, D.Tramp ABŞ və Kanada arasında sərhədi müəyyən edən müqaviləni etibarlı saymadığını bildirib və ona yenidən baxılmasını istəyib.

“The New York Times”in məlumatına görə, Kanadanın sabiq Baş naziri Castin Trüdo ilə söhbətlərinin birində Tramp razılaşmanı etibarlı hesab etmədiyini bildirib, lakin heç bir əlavə izahat verməyib.

Söhbət 1908-ci ildə bağlanan və ABŞ ilə o zaman hələ Britaniya dominionu olan Kanada arasında beynəlxalq sərhədi təyin edən müqavilədən gedir. Bundan əlavə, Tramp bir sıra beynəlxalq müqavilələrlə tənzimlənən göl və çaylardan birgə istifadəyə dair sazişlərə də yenidən baxmaq niyyətində olduğunu bildirib.

Kanada rəsmiləri Trampın ölkələri ilə bağlı əvvəlki fikirlərini nəzərə alaraq son açıqlamaları ciddi qəbul ediblər və buna səssiz qalmayıblar. Bu günlərdə D.Tramp və Kanadanın yeni Baş naziri Mark Karni arasında baş tutan görüşdə kritik anlar yaşanıb. Görüş əsnasında Ağ Ev rəhbəri Kanada ilə ABŞ-ın birləşməsi mövzusuna yenidən qayıdıb və bildirib ki, belə bir hadisə “möhtəşəm izdivac” olardı. Karni də cavabında ölkəsinin satılmadığını söyləyib: “Kanada satılmır və heç vaxt satılmayacaq”. Tramp da öz növbəsində Karniyə “Heç vaxt, heç vaxt demə!” deyə bildirib. Karni isə ardınca “Heç vaxt, heç vaxt, heç vaxt” kəlməsini 3 dəfə təkrarlayıb.



Göründüyü kimi, hər iki tərəf bəhs olunan mövzuda net mövqedə dayanır. Bundan əvvəl D.Tramp planını həyata keçirmək üçün Ottavaya iqtisadi təzyiq mexanizmini işə salmışdı. Ağ Evdən gələn miqrant xəbərdarlığı, idxal olunan Kanada məhsullarına yüksək rüsumların tətbiqi Ottavanı, necə deyərlər, diz çökdürmək ssenarisinin başlanğıcı idi. Kanada bu və digər təhdidlər qarşısında geri çəkilmədi, əksinə, ABŞ-ın rüsum siyasətinə oxşar sərt tədbirlərlə cavab verdi. D.Trampın özünün və onun komandasında yer alan məmurların Kanadanın Baş nazirini və digər yüksəksəviyyəli rəsmilərini “ABŞ-ın ən böyük ştatının qubernatorları” adlandırmaları isə Ottavanın daha kəskin reaksiyalarına səbəb oldu.

Məlum görüşdə müşahidə edilən ritorikadan o qənaət hasil olur ki, Ağ Evin Kanada ilə bağlı planlarında nəbz yoxlamaq mərhələsi artıq arxada qalıb. D.Tramp mövqeyində israrlıdır və kanadalılar üçün arzuolunmaz mövzunu hüquqi-siyasi müstəviyə keçirməyə çalışır.

Hələlik Trampın planının reallaşıb reallaşmayacağı barədə konkret fikir söyləmək çətindir. Ağ Evin yeni sahibinin Kanadanı ABŞ-ın 51-ci ştatı etmək planının motivləri isə müxtəlif amillərdən qaynaqlana bilər. Tramp bunu ölkəsinin hər il Kanada ilə ticarət dövriyyəsində 200 milyard dollar vəsait itirdiyi ilə əlaqələndirir. O, bunun davam etməsinə imkan verməyəcəyini vurğulayıb. Bundan əlavə, Kanadanın ABŞ-a qoşulması mövzusunu müzakirə edən Tramp vergi və müdafiə xərclərində əhəmiyyətli qənaətin kanadalılar üçün üstünlük ola biləcəyi fikrini də xüsusi olaraq diqqətə çatdırıb. Lakin bu kimi izahlar Kanadanın müstəqilliyini və suverenliyini itirməsi üçün əsas sayıla bilərmi? Analitiklər D.Trampın planının alt qatında daha ciddi maraqların olduğu qənaətindədirlər. İlk növbədə Kanadanın təbii sərvətlərlə - neftlə, qiymətli minerallarla zəngin olduğu önə çəkilir. Həmçinin böyük coğrafiya amilinə istinad olunur. Qeyd edək ki, ABŞ-ın sahəsi 9,83 milyon kvadratkilometrdir. Kanadanın ərazisi isə 9,98 milyon kvadratkilometr təşkil edir. Beləliklə, Tramın planı reallaşsa, Kanada ilə birlikdə ABŞ sahəsi 19,81 milyon kvadratkilometr ola bilər...

*Mübariz FEYİZLİ*

# Keçmişi indiyə çağırmaq

## Marsel Prustun “İtkin zamanın sorağında” epopeyası haqqında

**əvvəli ötən saylarımızda**

Epopeya, deyildiyi kimi, yeddi cilddən ibarətdir:
1. Svana doğru
2. Çiçəkli qızların kölgəsində
3. Germantların mülkündə
4. Sodom və Qomorra
5. Əsir qız
6. Qaçaq qız
7. Qaytarılmış zaman (bu da başqa bir versiya)

Prusta görə, insan ömrü məkanda yox, zamanda keçir. Yaddaş adlı mexanizmin köməyi sayəsində zamanı geri qaytarmaqla keçmişi ölümdən çağırmaq, insanı diriltmək olar. Nəinki adamları, onları əhatə eləyən mühiti, məkanı, əşyaları, detalları, bir sözlə, fonu da canlandırıb ölümün əlindən almaq mümkündür. Sənət dirilik iksiridir, o, bir cadugər kimi yoxluğa, faniliyə meydan oxuyur.

Məhz buna görə Marsel nəhəng roman boyu təkcə insanlara yox, gördüyü bütün mənzərələrə, qoxulara, dadlara, səslərə can verməyə çalışır, ən xırda detalları, elementləri belə gözdən qaçırmır, zamanın surətini xırda cizgilərinə qədər diri saxlamağa cəhd göstərir. Bu məqsəddən, məzmundan doğan xırdaçılıq, uzunçuluq əsərin üslubunda da əksini tapır: iç-içə yığılan qutular kimi bir-birinin bətnindən çıxan qarınqulu, gonbul, hamilə cümlələr, döngələri qəfil burulub dalanlarda bərkə dirənən, məcburən qayıdıb ana yola çıxan avara-sərgərdan, azğın, yola nabələd cümlələr, bəzən iti axan dağ çayı kimi çevik, qıvraq, yüngüləddəm, hazıryaraq, bəzən düzən çayı kimi ağırtaxta, ağırsəngin, şaqqalı, ləngərli cümlələr müəllifin zərrəbinlə apardığı psixoloji analizin ən incə detallarını belə gözdən qaçırmamaq üçün ona əsgər sədaqətiylə xidmət göstərir. Hələ-hələ hər böyük şairin də sərəncamında olmayan qədər saysız-hesabsız obrazlar, bənzətmələr, simvollar, metaforalar Marselin hüzurunda əmrə müntəzir durur.

Əslində, bu əsər sözün ənənəvi mənasında roman da deyil, nəhəng bir poemadır - bir yalqızlıq kamerasının dar pəncərəsindən görünən dünya haqqında qoşulmuş subyektiv poema, tək əllə, tək barmaqla bəstələnmiş kədərli melodiya. Bizim həmin aləmi ayrı gözlə görmək şansımız yoxdur, biz o dünyanı yalnız Marselin gözüylə görə bilərik. Ona görə də Marselin qandığından artığını qana bilmərik, çünki bizə o dünyanı başqa bucaqdan izləmək, qapı dalından, hasar üstündən gizlicə baxmaq imkanı verilməyib. Heç kim heç kimin dünyasının sərhədini poza bilməz, heç kəs başqasının düşündüklərini, duyduqlarını eynilə olduğu kimi düşünüb duya bilməz. Hər kəs öz dünyasını özüylə aparır, odur ki, yaradıcı insan öz dünyasına hələ hamının olan bu dünyadaykən əbədilik qazandırmaq istəyir.

***

Əsər, demək olar, başdan-ayağa “düşüncə seli” metoduyla yazılıb. Müəllif bizə yüzlərlə (bəlkə də minlərlə) personajın, canlı-cansız varlıqların, cürbəcür mənzərələrin, ağacların, bitkilərin, məişət əşyalarının, təbiət hadisələrinin... özünü yox, onların lirik qəhrəmanda yaratdığı təəssüratı, oyatdığı duyğuları təqdim eləyir. Biz bunların həmisinə Marselin beyninin qırışları, onun axan şüurunun dalğaları arasından baxırıq, fenomenlərin əslini yox, qəhrəmanın şüurundakı əksini görürük. Subyektivizmin ana prinsipi budur. Kant, ondan iki əsr sonra da ekzistensializm fəlsəfəsi deyirdi ki, insandan kənar varlıqlar “noumen”lər, yəni “özündə şey”lərdir, biz onların gerçək mahiyyətinə varıb əsl mənasını qana bilmərik, biz yalnız onların özümüzdə oyatdığı təəssüratı, duyğuları analizdən keçirə bilərik. “İtkin zamanın sorağında” romanının üslubu da belə bir subyektivist prinsip üzərində qurulub, ancaq heç də bütün məqamlarda yox. İstisnalar da var.

Məsələn, birinci cildin “Svanın sevgisi” adlı ikinci bölümündə müəllif təhkiyənin mərkəzinə Svanı çəkir. Yəhudi birja maklerinin oğlu, ağıllı, savadlı, dövlətli, səxavətli Şarl Svan şübhəli reputasiyası olan Odetta de Kresi adlı ayağısürüşkən, yüngülbeyin qadına aşiq olur. Qadın Svanın başına olmazın oyunlar açır, onu sağalmaz qısqanclıq dərdinə mübtəla eləyir. Müəllif onların münasibətini ən incə psixoloji detallarına, intim təfərrüatına qədər xırdalayır. Müəllifi başa düşdük, bəs təhkiyəçi baş qəhrəman bu detalları haradan bilir? Balaca Marsel ər-arvadın keçmiş münasibətini haradan izləyir, Svanla Odettanı gecə-gündüz necə güdürdü? Doğrudur, Svanların evinə gedib-gələn bir nəfər bu barədə yerli-yataqlı danışır, ancaq yenə də kimdənsə eşitməklə insanın daxili həyatını bunca dəqiq müşahidə eləmək mümkün deyil. Belə görünür ki, Prust həmin bölümdə üslubuna xilaf çıxıb, həm də bu, roman boyu rastlaşdığımız yeganə bənzər hal deyil.

Birinci cilddə Marsel kiçik Kombre şəhərciyində keçən uşaqlığını xatırlayır. Axşamlar yatmamışdan anasının onun yanına qalxıb üzündən öpməsi balaca Marsel üçün az qala dini ayinə bərabər bir ritualdır. Zəhmli atası uşağı nasaz görüb anasına onun yanında gecələməyi tapşıranda Marselin sevinci yerə-göyə sığmır, hətta atasının fikri dəyişməsin deyə sevincini sezdirməmək üçün cürbəcür psixoloji hoqqalardan çıxır. Müəllifin özü kimi romanın qəhrəmanı da anasına çox bağlıdır, hər ikisinin heç vaxt evlənməməyinin bir səbəbi də yəqin budur.

Kombredə gəzintiyə çıxmaq üçün iki yol var: biri Svanların mülkünə, o biri Germantların qəsrinə aparır. Bunlar reallığa uyğun gerçək həyat mənzərəsi olsa da, həm də rəmzi məna daşıyır - yəhudi Svanlar burjua, tacir, sələmçi ailəsindən çıxıblar, Avropada qədim kökləri olan Germantlar isə aristokrat, cəngavər, kral nəslindən törəyiblər, həyata baxışlarına görə bu nəsillər arasında ciddi fərqlər var. Svanın timsalında müəllif ehtirasın, qısqanclığın anatomiyasını, mexanizmini ağır səbrlə, böyük ustalıqla incələyir, bu səhnələrin psixoloji dəqiqliyi, dərinliyi adamda heyrət doğurur.

Svanın düşdüyü vəziyyət Marselin gələcək sevgi uğursuzluqlarının bir növ anonsu, prelüdiyasıdır. İkinci cilddə yeniyetmə qəhrəman Şarl Svanın qızı Jilbertaya aşiq olur. Sonra Marsel dəniz kənarındakı kurort şəhəri Balbekə gedir, orada bir dəstə qızla tanış olur, onların az qala hamısına vurulur. Ancaq qızların arasında Albertina adlı biri xüsusi seçilir. Balbekdə baş qəhrəman bir rəssamla ünsiyyət qurur, Germant nəslindən olan Rober de Sen-Lu adlı gənclə dostlaşır.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Qan xəstəliyi...

## Beynəlxalq Talassemiya Günüdür

Elə xəstəliklər var ki, anadangəlmədir. Belə xəstəliklər arasında talassemiyanı xüsusilə qeyd etmək yerinə düşər. Talassemiyada irsi faktorlar, həmçinin qohum evlilikləri də mühüm rol oynayır.

Məlumdur ki, irsi qan xəstəliyi olan talassemiya dünyanın bütün ölkələrində geniş yayılıb. Yeri gəlmişkən, bu gün - mayın 8-i Beynəlxalq Talassemiya Günüdür.

### Talassemiya nədir?

Talassemiya qan xəstəliyidir. Qırmızı qan hüceyrələrinə təsir göstərən pozğunluqdur. Qanın içərisindəki oksigeni daşıyan hüceyrələr sümüklərin içərisində yaranır. Bunlar isə hemoqlabin adlandırılan molekul tərəfindən daşınır. Bunlar pozulanda isə oksigen çatmır və qansızlıq yaranır.

### Simptomları...

Talassemiyanın simptomları müxtəlifdir. Ən çox rast gələnən simptomlar isə bunlardır: Sümük deformasiyaları, tünd rəngli sidik, inkişafın gecikməsi, daimi yorğunluq, sarı və ya solğun dəri.

### İki nəfər talassemiya daşıyıcısı evlənərsə...

Qohum nikahların genetik xəstəlikləri artırması faktdır. Araşdırmalar müəyyən edir ki, yad insanların evliliyindən doğulan uşaqların qüsurlu olma riski 2-4 faizdirsə, qohum evliliklərində bu göstərici 4-8 faizdir.

Talassemiya daşıyıcılarının bəzilərində yüngül qan azlığına təsadüf edilə bilər. Elə bu səbəbdən də çoxları talassemiyanın daşıyıcısı olduqlarını heç təsəvvürlərinə belə gətirmirlər. Onlar özlərini sağlam hiss etsələr də, xəstəliyin əlamətlərini uşaqlarına irsən ötürürlər. Əgər xəstəliyin daşıyıcıları olan iki nəfər bir-biri ilə evlənibsə, onda övladlarında talassemiyanın çox ağır forması hesab edilən "böyük talassemiya" inkişaf edir. Qeyd edək ki, hər insanda 23 cüt xromosom var. Hər bir cüt xromosomun biri anadan, digəri atadan gəlir. Xromosomlar DNT-ni formalaşdırır. DNT-nin funksiyalarını müəyyənləşdirən, kodlaşdıran bölümlərinə isə gen deyilir. Qohum evlilər eyni soydan gəldikləri üçün ana və atanın eyni geninin sürətini daşıyırlar. Belə olan halda qohum evliliklərdə zərərli genlərin bir-biri ilə qarşılaşma ehtimalı yüksək olur. Ona görə də onların uşaqlarının müəyyən xəstəliklərə tutulması ehtimalı çox yüksəkdir. Yəni, qohum nikahlar genetik xəstəlikləri artıran önəmli faktorlardan biridir. Genetik xəstəliklər arasında isə talassemiya, hemofiliya və başqa qan xəstəlikləri daha çox yayılıb.

### Azərbaycanda vəziyyət...

Talassemiyanın geniş yayıldığı ölkələr sırasında Azərbaycan da var. Hər il 300-ə yaxın uşaq bu xəstəliklə doğulur. Ümumilikdə isə əhalinin hər 12 nəfərindən biri xəstəliyin daşıyıcısıdır. Xəstəliklə bağlı ən çox müraciətlər isə Zaqatala, Şəki, Oğuz, Qəbələ. Ağdaş, Kürdəmir, Masallı, Lənkəran, Sabirabad rayonlarındandır. Həmin bölgələrdə talassemiya daşıyıcılarının çoxluğu nəticəsində xəstə uşaqların doğulması riski də daha çoxdur.

Ölkəmizdə son illər talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası istiqamətində mühüm tədbirlər görülüb. "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu bu xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaradıb.

Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, bu xəstəlikdən əlillik və ölüm halları azalıb.

*Yeganə BAYRAMOVA*

# Ağrıların diaqnostikasında yenilik...

## Süni intellektə əsaslanan innovativ texnologiya hazırlanıb



McGill Universitetinin tədqiqatçıları İsrail və İrlandiyadakı həmkarları ilə əməkdaşlıq çərçivəsində kompleks regional ağrı sindromunun (CRPS) diaqnostikası üçün süni intellektə əsaslanan innovativ texnologiya hazırlayıblar.

AZƏRTAC "Science Daily" portalına istinadla xəbər verir ki, texnologiya bağırsaq mikrobiomundakı nümunələri analiz edərək CRPS-in mövcudluğunu yüksək dəqiqliklə proqnozlaşdırmaq qabiliyyətinə malikdir. Bu üsul xroniki ağrıların diaqnostika və müalicəsində yeni bir dövrün başlanğıcını xəbər verə bilər. CRPS dünya üzrə 400 min ilə 2,1 milyon insana təsir edir və çox zaman travma və ya cərrahi müdaxilədən sonra yaranır. Bu sindrom şiddətli və davamlı ağrılar, şişginlik, dəri rəngində və temperaturunda dəyişikliklərlə xarakterizə olunur və tez-tez uzunmüddətli əlilliyə səbəb olur.

Tədqiqat "Anesthesiology" jurnalında dərc olunub və İsrailin Hayfa şəhərindəki Rambam Sağlamlıq Kampusunda yerləşən Ağrı Müalicəsi İnstitutunun direktoru və Technion-İsrail Texnologiya İnstitutunun baş müəllimi Yoram Şir və McGill Tibb Fakültəsinin professoru Emmanuel Qonzalez tərəfindən idarə olunub.

Tədqiqat çərçivəsində İsrail və Kanadadan olan iki fərqli pasiyent qrupundan toplanmış bağırsaq mikrobiomu nümunələri süni intellektə əsaslanan maşın texnikaları ilə təhlil olunub. Bu analiz nəticəsində CRPS-in spesifik "mikrobiom imzası" müəyyən edilib. Alimlər bu imzanın Kanadalı pasiyentlərdə 90 faizdən çox dəqiqliklə CRPS diaqnostikasını mümkün etdiyini bildirib.

"Coğrafiya, iqlim, pəhriz və genetik müxtəliflik adətən mikrobiom üzərində ciddi təsir göstərsə də, bizim AI yanaşmamız bu dəyişkənliyi aşaraq xəstəliyin ümumi biomarkerini müəyyən etməyə imkan verdi", - deyə professor Qonzalez qeyd edib. Bu isə mikrobioma əsaslanan diaqnostikanın müxtəlif coğrafi bölgələrdə tətbiq oluna biləcəyini göstərir.

Daha da maraqlısı odur ki, tədqiqatçılar, hətta əzalarını amputasiya etmiş və klinik simptomları aradan qalxmış şəxslərdə belə, CRPS-ə xas olan bağırsaq bakteriya modelinin hələ də mövcud olduğunu aşkarlayıblar. Bu, bəzi fərdlərin bağırsaq mikrobiomlarının onları CRPS kimi xroniki ağrı sindromlarına qarşı genetik və ya ekoloji baxımdan daha həssas edə biləcəyini göstərir. Tədqiqat 120 mikrobiom və 100-dən çox plazma nümunəsinin təhlilinə əsaslanır və bu sahədə ən genişmiqyaslı işlərdən biri hesab olunur. Nəticələr CRPS-in diaqnozu və hədəflənmiş müalicə strategiyalarının inkişafı üçün mühüm əsas yaradır.

Bu elmi nailiyyət bağırsaq mikrobiomu və süni intellekt texnologiyalarının klinik diaqnostikada birləşməsinin gücünü nümayiş etdirir və gələcəkdə fərdiləşdirilmiş ağrı müalicə protokolları üçün yeni imkanlar yaradır.

### Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədova dayısı

**ELMAN SƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir




# Azercell-in eksklüziv tərəfdaşlığı ilə "Bakı Marafonu 2025" baş tutdu

2025-ci il mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü və Azercell-in eksklüziv tərəfdaşlığı ilə paytaxtın ənənəvi kütləvi idman tədbiri olan "Bakı Marafonu" uğurla baş tutdu. Builki marafon da müxtəlif yaş qruplarından olan minlərlə insanı bir araya gətirərək sağlam həyat tərzi ətrafında birləşdirdi.

"Küləyə qalib gəl" şüarı altında təşkil olunan qaçış üçün təxminən 28 000 nəfər müraciət etmişdi. Yarış iştirakçıları Dövlət Bayrağı Meydanından start götürərək 21 kilometrlik dairəvi marşrut üzrə mübarizəyə qoşuldular. Lider mobil operatorun dəstəyilə keçirilən marafonda artıq bir neçə ildir ki, atletlərin nişan nömrələrinə xüsusi rəqəmsal xronometrlər (timekeeper) yerləşdirilir. Bu elekton cihaz nəticələrin real zaman rejimində qeydə alınmasını və maksimal dəqiqliyini təmin edir.

Kişilər arasında yarışın qalibi türkiyəli Atac Sezgin oldu. Ukraynalı Vitali Şafar finiş xəttini ikinci, Türkiyənin digər təmsilçisi Murat Emekdar isə üçüncü keçdi. Qadınların mübarizəsində isə ukraynalı Natalya Semenoviç birinciliyə nail oldu. Azərbaycanlı Anna Yusupova yarışı ikinci, Yaponiyadan olan atlet Eriko Soma isə üçüncü pillədə tamamladılar.

Azercell Telekom qalibləri xüsusi hədiyyələrlə mükafatlandırdı. Mobil operator ənənəyə sadiq qalaraq tədbirin fərqlənmiş tələbə iştirakçılarını da diqqət mərkəzində saxladı.

# "Azercell Telekom" MMC bəzi tarif paketlərinin istifadə şərtlərinin dəyişməsi ilə bağlı açıqlama yaydı




"Azercell Telekom" MMC abunəçilərə təqdim etdiyi bəzi tarif paketilərinin istifadə şərtlərinin dəyişməsi ilə bağlı mediada yayılan məlumatlara aydınlıq gətirib:

Yayımlanan açıqlamada bildirilir ki, abunəçilərin istifadəsinə verilən nömrələrlə bağlı münasibətləri tənzimləyən Abunə müqaviləsinin 2.7.-ci maddəsinə əsasən yalnız abunəçilər üçün daha əlverişli, güzəştli və sərfəli vəziyyət yaradılan zaman tariflər Azercell tərəfindən birtərəfli qaydada öz mülahizəsinə əsasən dəyişdirilə bilər. Digər hallarda isə kütləvi informasiya vasitələri ("KİV") ilə abunəçiləri öncədən xəbərdar etməklə mövcud qanunvericiliyə uyğun olaraq sərbəst şəkildə dəyişdirilə bilər.

"Azercell Telekom" MMC bildirir ki, bütün dəyişikliklər abunəçilərin istifadəsinə verilən nömrələrlə bağlı münasibətləri tənzimləyən Abunə müqavilələrinin şərtlərinə, həmçinin Azərbaycan Respublikası qanunvericiliyinə uyğun həyata keçirilir. Fakturasız Xətt Sistemınə aid Azercellim, Bölgə, Gəncsim, Hər Yerə və Bizimkilər tarif paketlərində edilən müvafiq dəyişikliklərlə bağlı elan 25 yanvar 2025-ci il tarixində Azərbaycan qəzetində dərc edilmişdir: https://azerbaijan-news.az/az/posts/detail/azercell-abunecilerinin-nezerine-1737753596/350893.

Beləliklə "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 25.02.2025-ci il tarixindən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan "Azercellim", "Bölgə", "Gəncsim", "Bizimkilər" və "Hər Yerə" tarif paketlərində, 2 AZN aylıq (otuz təqvim günü) abunə haqqı tətbiq edilir. Abunə haqqı müqabilində abunəçiyə otuz günlük istifadə müddətinin sonunadək 25 şəbəkədaxili dəqiqə və 250 MB həcmli internetdən istifadə imkanı təqdim olunur. Hər hansı abunəçi istifadə etdiyi tarif paketinin şərtlərini əlverişsiz hesab edirsə, müvafiq paketə abunəlikdən imtina edə, digər şərtləri olan paket əldə edə və ya fakturalı\fakturasız (SimSim) xətt sisteminə keçid edə və oradakı digər tarif paketlərindən istifadə edə bilər.

Qeyd edək ki, mobil rabitə istifadəsində dəyişən trendləri nəzərə alaraq "Azercell Telekom" MMC mütəmadi olaraq mövcud xidmətlərin optimallaşdırılmasını həyata keçirir. Bu məqsədlə bəzi xidmətlərin uzunmüddətli və səmərəli texniki dəstəyini təmin etmək üçün xidmətlərin istifadə şərtlərində vaxtaşırı müvafiq dəyişikliklər tətbiq edilə bilər.

"Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlərə görə tariflərin tətbiqi həm yerli, həm xarici, həmçinin MDB məkanında fəaliyyət göstərən operatorların analoji xidmətinə görə tətbiq etdikləri xidmət haqqı nəzərə alınmaqla özündə abunəçilərin məmnuniyyəti, rahatlığı, dəyişən tələbatını və s. amilləri əks etdirən bazar araşdırmaları əsasında formalaşdırılır.

Eyni zamanda, abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin sifarişi, başqası ilə əvəzləmə və imtina qaydası, həmçinin "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com) və yaxud Müştəri Xidmətlərinə (MX ofisləri, 7/24 fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət edərək əldə edə bilərlər.

# "Bakcell" mobil tətbiqi süni intellekt dəstəkli təkliflər dövrünə keçir




İnnovasiya və sürət lideri "Bakcell" mobil tətbiqində süni intellekt texnologiyasından istifadə edərək, müştərilərə fərdiləşdirilmiş yeni təkliflər təqdim edib. Süni intellekt ilə yaradılan həllər abunəçilərin zəng və internet istifadəsi ilə bağlı vərdişlərini nəzərə alaraq, onlara uyğun kampaniya və tarif planlarını formalaşdırır.

Müştəri davranışlarının təhlili ilə yaradılan kampaniya və tarif planları bildiriş şəklində istifadəçilərin nəzərinə çatdırılır. Bu yenilik sayəsində müştərilər vaxtlarına qənaət edərək, yaradılmış xüsusi təkliflərdən faydalana bilirlər.

Fəaliyyəti çərçivəsində müştəri məmnuniyyətini öndə tutan "Bakcell" daim istifadəçilərinin dəyişən ehtiyac və gözləntilərinə uyğun innovativ həllər təqdim edir. Beləliklə, "Bakcell" müasir texnologiyalara əsaslanan məhsul və xidmətləri ilə innovasiyanı gündəlik istifadəçi təcrübəsinin ayrılmaz hissəsinə çevirərək, müştəriyönümlü inkişaf strategiyasını uğurla davam etdirir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4922
Sifariş: 949
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova